| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 30.04.2001 |
| QEYDİYYAT NÖMRƏSİ | 475 |
| ADI | Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinin yaradılması haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-04-2001, Nəşr nömrəsi: 04, Maddə nömrəsi: 245) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 30.04.2001 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 010.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

## Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinin yaradılması haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Dövlət idarəetmə strukturunu təkmilləşdirmək məqsədi ilə və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinə rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dövlət Əmlakı Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Ticarət Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi və Azərbaycan Respublikasının Xarici İnvestisiyalar Agentliyi ləğv edilsin və onların bazasında Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi yaradılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bir ay müddətində:

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinin Əsasnaməsinin layihəsini hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 30 aprel 2001-ci il
475